**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

**Əlyazması hüququnda**

**SABİRƏ SABİR QIZI BAYRAMOVA**

# HACI KƏRİM SANILININ PEDAQOJİ FƏALİYYƏTİ VƏ GÖRÜŞLƏRİ

**5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının**

**A V T O R E F E R A T I**

**Bakı - 2014**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Pedaqogika və təhsilin əsasları kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: **Fərrux Abbas oğlu Rüstəmov**
*Əməkdar elm xadimi, pedaqogika üzrə elmlər doktoru, professor*

Rəsmi opponentlər: **Zahid Abdulla oğlu Xəlilov**
*filologiya üzrə elmlər doktoru, professor*

**Mircəfər Mirməsi oğlu Həsənov**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor*

Aparıcı təşkilat: Sumqayıt Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrası

Müdafiə «__20____»__05_____2014-cü il, saat ___ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan: AZ-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 34.**

**Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.**

**Avtoreferat «_____» __________ 2014-cü ildə göndərilmişdir.**

Dissertasiya şurasının elmi katibi: **K. R. Quliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

## Tədqiqat işinin ümumi səciyyəsi

Mövzunun aktuallığı. Azərbaycan xalqı dünya təhsil və tərbiyə mədəniyyətinə dəyərli töhfələr vermişdir. Böyüyən nəslin mənəvi inkişafı, təhsil və tərbiyəsi ilə bağlı Azərbaycan məktəbdarlarıının və maarifpər- vərlərinin pedaqoji nəzəriyyənin və təcrübənin inkişafına təsir göstərən ideya və baxışlarının tədqiqi həmişə aktual olmuşdur. Çünki müasir pedaqoji nəzəriyyələr tarixi inkişafın nəticəsidir. Ona görə də tarixi pedaqoji irs sistemli şəkildə araşdırılmalı, tədqiq və təhlil olunmalı, müasir təhsil quruculuğunda ondan səmərəli istifadə edilməlidr. Etiraf olunmalıdır ki, maarifçilərimizin böyüyən nəslin təhsil-tərbiyəsi ilə bağlı irəli sürdüyü ideyalar müasir mütərəqqi nəzəriyyələr üçün təkanverici bünövrə rolunu oynamış, bitkin elmi konsepsiyaların formalaşmasına təkan vermışdir. XX əsrin əvvəllərində Azərbaycan mütəfəkkirləri maarifçiləri, ziyalıları, müəllimləri xalqımızı savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər. Həmin maarifçilərin bu gün də insanın ağlına, zəkasına qida və qüvvət verən fikir və baxışları Azərbaycan pedaqoq alimlərinin daim müraciət etdiyi qiymətli mənbələrdən biridir. «Keçmiş bu günlə bağlı olduğu kimi, gələcəklə də sıx əlaqədardır. Bu gün dünənin, sabah isə bu günün bətnindən doğduğuna görə, bu gündə dünənin, sabahda isə bu günün izləri olur. Bir çox məsələlərdə gələcək üçün zəmin təşkil edən bu günün ağıllı, qabaqcıl fikirləri keçmişin mütərəqqi irsi ilə sıx əlaqədardır».[1] Ona görə də keçən əsrin 30-cu illərindən etibarən Azərbaycanda təhsil və pedaqoji fikir tarixinin araşdırılmasına başlanıldı. Pedaqoji fikir tariximizlə bağlı sistemli tədqiqatlar ilk azərbaycanlı pedaqoji elmlər doktoru, professor Əhməd Seyidovun adı ilə bağlıdır. O, 1939-cu ildə «A.Bakıxanovun pedaqoji görüşləri» mövzusunda namizədlik dissertasiyası müdafiə etməklə yeni elmi istiqamətin əsasını qoymuşdur. Sonrakı illərdə o, öz elmi –pedaqoji fəaliyyətini genişləndirmiş, 1947-ci ildə «XIX əsr Azərbaycan pedaqoji fikrinin əsas nümayəndələri» mövzusunda doktorluq dissertasiyası müdafiə etməklə adını təhsil tarixinə ilk azərbaycanlı pedaqoji elmlər doktoru kimi yazdırmışdır. Onun açdığı cığır sonralar elmi istiqamətə çevrilmiş, M.M.Mehdizadə («Azərbaycan Sovet məktəbinin tarixi»), H.M.Əhmədov («XIX əsrdə Azərbaycanda məktəb tarixinin inkişaf tarixi»), Ə.Ş.Həşimov («Azərbaycan xalq pedaqogikası»), Ə.A.Ağayev

[1] F.Rüstəmov. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri. (1920-1991-ci illər). Bakı, «Bakı Universiteti», 1998, s.8

(«Azərbaycan ictimai – pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi») doktorluq, M.Ə.Muradxanov («N.Gəncəvinin pedaqoji fikirləri»), S.Xəlilov («1917-1920-ci illərdə Azərbaycanda xalq maarifi»), Ə.M.Həsənov («Azərbaycanda əlifba və ondan sonrakı ilk oxu kitabının tarixi»), Əmir Tağıyev («M.Ə.Sabirin maarifçilik və pedaqoji görüşləri»), Z.Q.Axundova («Azərbaycanda qadın təhsilinin tarixi»), D.A.Mustafayeva («A.Şaiqin pedaqoji fəaliyyəti və ədəbi yaradıcılığında uşaqların tərbiyəsi haqqında fikirləri»), V.İ.Mustafazadə («Azərbaycanda ibtidai təhsilin inkişaf tarixi»), İ.İ.İsayev («Abbas Səhhətin təlim – tərbiyə haqqında fikirləri») namizədlik (fəlsəfə doktoru) dissertasiyaları müdafiə etmişlər. XX əsrin 60 – 70 – ci illərində bu istiqamətdə fəaliyyət daha da genişləndirilmiş, onlarla dissertasiya müdafiə olunmuş və monoqrafiyalar yazılmış, Qori Müəllimlər Seminariyasının azərbaycanlı məzunlarının həyat və fəaliyyətinin öyrənilməsi istiqamətində səmərəli addımlar atılmışdır. Bu baxımdan F.Seyidovun («Zaqafqaziya Müəllimlər Seminariyasının azərbaycanlı müəllim kadrları hazırliğında rolu»), Ə.A.Ağayevin («Fərhad Ağazadənin pedaqoji fəaliyyəti və görüşləri»), Ə.Cəlilovun («S.S.Axundovun maarifçilik pedaqoji fəaliyyəti və pedaqoji görüşləri»), S.Əzimovanın («F.B.Köçərlinin pedaqoji görüşləri və pedaqoji fəaliyyəti»), Z.Mehrəliyevanın («C.Məmmədquluzadənin pedaqoji fəaliyyəti və görüşləri»), S.Orucovanın («Ü.Hacıbəyovun pedaqoji görüşləri»), B.Nəsirovun («M.Mahmudbəyov Azərbaycanda təhsilin demokratikləşdirilməsi və təlimin ana dilində aparılması uğrunda mübarizədə»), İ.Mollayevin («Məhəmməd Taği (Sidqi) Səfərovun pedaqoji fəaliyyəti və pedaqoji ğörüşləri») tədqiqatları xüsusi qeyd olunmalıdır. Onların pedaqoji irsinin hərtərəfli təhlili pedaqoji fikir tariximizin zənginləşməsinə, gənc nəslin təlim-tərbiyəsinin daha səmərəli qurulmasına öz töhfəsini vermişdir. Həmin materiallar əsasında keçən əsrin 70-ci illərində akademik Hüseyn Əhmədovun təşəbbüsü ilə «Azərbaycan məktəb və pedaqoji fikir tarixi»[2] xüsusi kursunun proqramı hazırlanmış, Azərbaycan və rus dillərinə nəşr olunmuş, həmin proqram indiki ADPU-da, NDU-da TDPU-da sınaqdan keçirilmiş, rus və Azərbaycan dillərində dərs vəsaitləri[3] nəşr olunmuşdur. Həmin proqramda Qori Müəllimlər Seminariyasının məzunları sırasında özünəməxsus yer tutan Hacı Kərim Sanılının da pedaqoji fəaliyyətinin və maarifçilik görüşlərinin öyrədilməsi nəzərdə tutulmuşdur.

---

[2] Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Proqramm (Tərtib edənlər H.M.Əhmədov, M.Ə.Muradxanov, Ə.S.Tağıyev, İ.N.İsayev, F.A.Rüstəmov) Bakı, ADPU, 1992

[3] H.Əhmədov. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, «Təhsil», 2001

O, XIX əsrin sonu, XX əsrin ilk onilliklərində fəaliyyət göstərmiş, ədəbi yaradıcılıqla məşğul olmuş, fədakar maarifçi kimi çalışmışdır. Bədii əsərləri real həyatı əks etdirmiş, milli və ümumbəşəri dəyərləri geniş oxucu kütləsinə çatdırmaqla Azərbaycan ədəbiyyatının inkişafı və formalaşmasında əhəmiyyətli rol oynamışdır. Habelə bir müəllim kimi dövrün təhsil problemlərinin səmərəli həllinə, proqram və dərsliklərin hazırlanmasına, ölkədə savadsızlığın aradan qaldırılmasına, milli uşaq ədəbiyyatının təşəkkülünə qayğı göstərmişdir. Təhsilin ana dilində aparılması və əlifba təliminin metodikasına dair qiymətli fikirlər söyləmiş, müəllimlik fəaliyyəti ilə məşğul olmuş, yeni məktəblərin açılmasında fəal rol oynamışdır.

Uzun müddət Hacı Kərim Sanılının həyat və yaradıcılığı öyrənilməmiş, yalnız keçən əsrin II yarısında bu görkəmli şəxsiyyətlə bağlı ilk yazılar meydana gəlmişdir. Onun ədəbi və pedaqoji fəaliyyəti tədqiqat obyektinə çevrilmişdir. Onun ictimai – siyasi və ədəbi – pedaqoji fəaliyyətini təhlil edən Məsud Əlioğlu yazırdı: «H.K.Sanılının ...irsi öyrənilməyə, ... tədqiq olunmağa və təbliğ edilməyə tamamilə layiqdir.» Həmin yazıdan sonra H.K.Sanılının ədəbi-pedaqoji irsi ilə bağlı bir sıra əsərlər meydana gəldi. Bunları 3 qrupa bölmək olar:

1. Azərbaycan ədəbiyyatının tarixindən bəhs edən əsərlərdə Hacı Kərim Sanılının ədəbi yaradıcılığının müəyyən problemlərinə qismən toxunulmuş, qısa məlumatlar verilmişdir. Buraya N.Qəhrəmanovun «Azərbaycan ədəbiyyatı tarixçiliyi (XIX - XX əsrlər)», C.Qasımovun «Siyasi repressiya həyatda və ədəbiyyatda (1920 – 1950 - ci illər)» adlı əsərlərini aid etmək olar.

2. Hacı Kərim Sanılının həyatı və ədəbi yaradıcılığının sistemli araşdırılmasından bəhs edən əsərlər. Bu baxımdan T.Həsənovanın «Hacı Kərim Sanılının yaradıcılıq yolu» adlı namizədlik dissertasiyası xüsusi əhəmiyyət kəsb edir. Müəllif şairin ədəbi irsini kompleks tədqiqata cəlb edərək ciddi elmi ümumiləşdirmələr aparmışdır. A.Musaxanlı, M.Rəfili, M.Hüseyn, H.Zeynallı, Ə.Nəzmi və M.Əlioğlunun şairin ədəbi yaradıcılığı ilə bağlı tədqiqatları da dəyərli mənbə kimi qiymətləndirilməlidir.

3. Hacı Kərim Sanılının maarifçilik fəaliyyətini və pedaqoji görüşlərini əhatə edən əsərlər. Buraya prof. S.Şükürovun, prof. X.Fətəliyev və prof. İ.İsayevin Hacı Kərim Sanılının böyüyən nəslin təhsil – tərbiyəsi ilə bağlı fikirlərinin araşdırılmasına həsr olunmuş əsərlərini aid etmək olar.

Mövcud tədqiqatların heç birində Hacı Kərim Sanılının maarifçilik görüşləri, təhsil –tərbiyə ilə bağlı fikirləri (təhsilin məzmunu, təlimin metodları, təşkili formaları, tərbiyənin metodları, böyüyən nəslin əxlaqi, etik, estetik, fiziki, əmək tərbiyəsi), dərslik yaradıcılığı sahəsindəki xid-

mətləri, ictimai – siyasi və pedaqoji fəaliyyətinin müxtəlif aspektləri, uşaq ədəbiyyatı və qadın təhsilinin inkişafındakı rolu, nəzəri – pedaqoji irsinin pedaqoji nəzəriyyələrin formalaşmasına təsiri kompleks şəkildə araşdırılmamış, onun Azərbaycan pedaqoji fikir tarixində yeri və rolu müəyyənləşdirilməmişdir.

Deyilənləri əsas tutaraq, «Hacı Kərim Sanılının pedaqoji fəaliyyəti və görüşləri» mövzusunda dissertasiya yazmağı qərara aldıq.

**Tədqiqatın obyektini** XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji fikrin inkişafı təşkil edir.

**Tədqiqatın predmetini** Hacı Kərim Sanılının pedaqoji fəaliyyəti və görüşləri təşkil edir.

**Tədqiqatın məqsədi** Hacı Kərim Sanılının maarifçilik görüşlərini, təhsil –tərbiyə ilə bağlı fikirlərini (təhsilin məzmunu, təlimin metodları, təşkili formaları, tərbiyənin metodları, böyüyən nəslin əxlaqi, etik, estetik, fiziki, əmək tərbiyəsi), dərslik yaradıcılığı sahəsindəki xidmətlərini, ictimai – siyasi və pedaqoji fəaliyyətinin müxtəlif aspektlərini təhlil etməkdən, uşaq ədəbiyyatı və qadın təhsilinin inkişafındakı rolunu, nəzəri – pedaqoji irsinin pedaqoji nəzəriyyələrin formalaşmasına təsirini kompleks şəkildə araşdırmaqdan, onun Azərbaycan pedaqoji fikir tarixində yerini və rolunu müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri:**

- H.K.Sanılının yaşadığı ictimai-siyasi və tarixi dövrü səciyyələndirmək;
- H.K.Sanılının həyatı və pedaqoji fəaliyyətininin mühüm məqamlarını təhlil etmək;
- H.K.Sanılının böyüyən nəslin təhsil - tərbiyəsi ilə bağlı nəzəri fikirlərini ümumiləşdirmək;
- H.K.Sanılının təhsilin məzmunu, təlimin prinsip, metod və təşkili formaları, məktəb və müəllim haqqında fikirlərini sistemləşdirmək;
- H.K.Sanılının dərsliklərinin elmi – pedaqoji siqlətini üzə çıxarmaq, metodik vəziyyətlərini və müasir dövr üçün əhəmiyyətini müəyyənləşdirmək;
- H.K.Sanılının uşaq ədəbiyyatının və qadın təhsilinin inkişafındakı xidmətlərini üzə çıxarmaq;
- H.K.Sanılının nəzəri – pedaqoji irsinin özündən sonrakı pedaqoji nəzəriyyələrin formalaşmasına təsirini kompleks şəkildə araşdırmaq, onun Azərbaycan pedaqoji fikir tarixində yerini və rolunu müəyyənləşdirmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək və dəyişdirmək məqsədilə tətbiq olunan müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

**Tədqiqatın metodlarını** nəzəri-tarixi təhlil, arxiv sənədlərinin, elmi, ədəbi-bədii materialların öyrənilməsi təşkil edir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Hacı Kərim Sanılının maarifçilik görüşləri, təhsil –tərbiyə ilə bağlı fikirləri (təhsilin məzmunu, təlimin metodları, təşkili formaları, tərbiyənin metodları, böyüyən nəslin əxlaqi, etik, estetik, fiziki, əmək tərbiyəsi), dərslik yaradıcılığı sahəsindəki xidmətləri, ictimai – siyasi və pedaqoji fəaliyyətinin müxtəlif aspektləri, uşaq ədəbiyyatı və qadın təhsilinin inkişafındakı rolu, nəzəri – pedaqoji irsinin pedaqoji nəzəriyyələrin formalaşmasına təsiri kompleks şəkildə araşdırılmış, onun Azərbaycan pedaqoji fikir tarixində yeri və rolun müəyyənləşdirmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, o XX əsrin əvvəllərində Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin zənginləşməsində, mövcud boşluqların doldurulmasında mühüm rol oynaya bilər.

**Tədqiqatın praktik əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat materillarından ali pedaqoji təhsil müəssisələrinin bakalavriat və magistratura pillələrində mühazirə və seminar məşğələlərində, xüsusilə «Azərbaycan məktəb və pedaqoji fikir tarixi» kursunun tədrisində, müvafiq xüsusi kurs və seminarlarda istifadə edilə bilər. Onun dərslik yaradıcılığındakı fəaliyyəti metodist alimlər üçün dəyərli mənbə ola bilər.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- H.K.Sanılının ədəbi – bədii və pedaqoji fəaliyyətinə ictimayi-siyasi, elmi - mədəni və pedaqoji mühit əsaslı təsir göstərmişdir;
- H.K.Sanılının böyüyən nəslin təhsil –tərbiyəsi (təhsilin məzmunu, təlimin metodları, təşkili formaları, tərbiyənin metodları, böyüyən nəslin əxlaqi, etik, estetik, fiziki, əmək tərbiyəsi) ilə bağlı orijinal fikirləri, dərslik yaradıcılığı sahəsindəki xidmətləri XX əsrin birinci yarısında pedaqoji nəzəriyyələrin formalaşmasında mühüm rol oynamışdır.
- H.K.Sanılının pedaqoji irsindən gənc nəslin təlim-tərbiyəsi prosesində istifadə edilməsi onların mənəvi şüurunun və davranışının formalaşmasında güclü vasitədir.
- H.K.Sanılı sovet məktəbinin formalaşmasında, ibtidai təhsilin məzmunun müəyyənləşdirilməsində, ilk əlifba dərsliklərinin tərtibində, məktəbyaşlı uşaqların təhsilə cəlb edilməsində, yaşlılar arasında savadsızlığın ləğv edilməsində, uşaq ədəbiyyatı nümunələrinin yaradılmasında,

qadınların maarif işinə cəlb edilməsindəki vətəndaşlıq mövqeyi ilə özündən sonrakı pedaqoji nəzəriyyələrin formalaşmasında mühüm rol oynamışdır.

- H.K.Sanılının pedaqoji fikirləri, onun maarifçilik fəaliyyəti gənc nəslin həyata real, düzgün münasibətlərinin formalaşması, müstəqillik vərdişlərinin və yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün mühüm vasitədir.

**Tədqiqat işinin aprobasiyası.** Aparılmış tədqiqat işinin nəticələri ilə bağlı Qafqaz Universitetində, Gəncə Dövlət Universitetində, Azərbaycan Universitetində, Naxçıvan Müəllimlər İnstitutunda, Qori Müəllimlər İnstitutunda (Gürcüstan), Doktorantların və gənc tədqiqatçıların XVII və XVIII Respublika elmi konfranslarında məruzələr edilmiş, AAK – ın tövsiyə etdiyi jurnallarda 10 məqalə nəşr olunmuşdur.

Dissertasiya giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## Tədqiqat işinin əsas məzmunu

**Girişdə** mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar təqdim edilmişdir.

**«Hacı Kərim Sanılının yaşadığı dövr, həyatı və pedaqoji fəaliyyəti»** adlı birinci fəslin *«Hacı Kərim Sanılının yaşadığı dövrün ictimai – siyasi səciyyəsi»* adlı ilk yarımfəslində ədibin yaşadığı dövrün ictimai-siyasi, elmi-mədəni mənzərəsi nəzərdən keçirilir. Göstərilir ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda milli məktəb, milli dərslik, milli tərbiyə problemlərini həll etməyə qabil ziyalılar dəstəsi formalaşdı. Azərbaycan müəllimləri təhsilin demokratikləşdirilməsi, təlimin ana dilində aparılması, yeni məktəblərin yaradılması və yeni əlifba uğrunda mübarizəyə qoşuldular. H.Zərdabi, N.Nərimanov, Ə.Topçubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, S.M.Qənizadə, F.Köçərli, N.Vəzirov, Ü.Hacıvbəyov, C.Məmmədquluzadə müxtəlif cərəyanları təmsil etsələr də, milli mənafe uğrunda eyni platformada dayanırdılar. Onlar yeni məktəbləri maarifçiliyin, milli özünüdərkin, milli şüur təliminin əsas idealı hesab edirdilər. Millətin mənəvi diriliyi, əxlaqi, hüquqi və siyasi tərbiyəsi onları düşündürən məsələlərdən idi.

XX əsrin əvvəllərində biri-birinin ardınca «Qeyrət», «Difai», «Müdafiə», «Müsavat» partiyaları yaradılır, milli hərəkat gücləndirilirdi. Bu partiyalar müsəlmanlar içərisində maarif və mədəniyyəti yaymağı, onların hüquq və mənafelərinin müdafiəsini zəruri məqsəd və vəzifə hesab edirdilər. Maarifçilər yaxşı bilirdilər ki, orta əsrlərdə Azərbaycanda elmin, təhsilin, maarifin inkişafında çox böyük tarixi rol oynayan köhnə məktəb və

mədrəsə yeni maarifçiliyin ideya və təşkilati mərkəzin hərəkat və fəaliyyət orqanı ola bilməz. Odur ki, üsuli – cədid hərəkatının qarşısında onu dəyişmək, yeni dövr məktəbinə çevirmək vəzifəsi dururdu (F.Rüstəmov). Milli ziyalıların fəaliyyəti nəticəsində ibtidai məktəblərin və rus-müsəlman məktəblərinin şəbəkəsi genişlənir, yeni-yeni məktəblər yaranırdı. 1901-ci ildə H.Z.Tağıyev tərəfindən ilk qadın rus-müsəlman məktəbi açıldı. Bu, o dövr üçün mütərəqqi hadisə idi.

XX əsrin əvvəllərində maarifçiliyin inkişafında və pedaqoji hərakatın genişlənməsində «Molla Nəsrəddin» «Dəbistan», «Məktəb», «Rəhbər» jurnallarının, «İrşad», «Tərəqqi», «İqbal» qəzetlərinin mühüm rolu oldu.

Qeyd olunan dövrdə xeyriyyə cəmiyyətləri yaranır ki, onlar da həm məktəblərin açılmasında, həm də kitab və dərsliklərin çap edilməsində xeyli iş görürdülər Belə cəmiyyətlərə «Səfa», «Nicat», «Cəmiyyəti-xeyriyyə», «Nəşri-maarif», «Ədəb yurdu» və s. aid etmək olar. Məhz onların köməyi ilə Gəncədə «Mədrəseyi-ruhani», Nuxada «Həqiqəti-süfyan», Ağdaşda «Dacülful-ücfan», Şamaxıda «Üxüvvət», Lənkəranda «Behcət» məktəbləri açılmışdı.

Bu dövrün əsas əlamətdar hadisəsi Bakıda Zaqafqaziya müəllimlərinin I və II qurultaylarının keçirilməsidir. Qurultaylarda Azərbaycanda məktəb şəbəkəsinin genişləndirilməsi, yeni tədris proqramlarının hazırlanması, qadın təhsilinin inkişafı, müəllimlərin sosial təminatı məsələləri nəzərdən keçirildi və proqram qəbul edildi.

XX əsrin əvvəllərində milli təhsilin qarşısında duran vəzifələrdən biri də uşaq ədəbiyyatı və dərs vəsaitləri hazırlanması məsələləri idi. Bu dövrdə yazıda ərəb əlifbasından istifadə edilirdi ki, bu da tədrisdə müəyyən çətinliklər törədir, ana dilinin öyrənilməsində əngəllər yaradırdı. F.Köçərli, S.S.Axundov, M.F.Axundov və b. ərəb əlifbasının latın əlifbası ilə dəyişdirilməsi fikrini qətiyyətlə irəli sürürdülər. Dövrün qabaqcıl ziyalıları yeni dərsliklər yaradır, uşaq ədəbiyyatının yaranmasında əzmkarlıqla çalışırdılar. 1901-ci ildə R.Əfəndiyev «Bəsirət-ül-əffal», 1907-ci ildə S.S.Axundov, F.Ağayev, A.Şaiq, Ə.Əfəndiyev «İkinci il», 1909-cu ildə M.Mahmudbəyov və A.Səhhət «Üçüncü il» dərsliklərini, 1910-cu ildə A.Şaiq «Uşaq gözlüyünü», 1912-ci ildə F.Köçərli «Balalara hədiyyə» müntəxəbatını nəşr etdirdilər.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Cümhuriyyət illərində milli mətbuatın, milli təhsilin inkişafında xeyli uğurlar əldə olundu. Bu dövrdə «Azərbaycan», «İstiqlal», «Al bayraq», «Bəssirat», «Gələcək», «Şeypur», «Doğru yol», «El», «Hürriyyət» və d. qəzet və dərgilər çap olundu.

Təhsildə milliləşdirmə əsas yer tutdu. 1919-cu ilin sonunadək bir neşə məktəb istisna olunmaqla, bütün orta məktəblər milliləşdirildi. Orta məktəblərin yeni proqramlarının hazırlanması üçün komissiyalar yaradılıdı. Komissiyalar tarix, coğrafiya, Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, ilahiyyat üzrə proqramlar hazırlayırdılar. Yeni əlifba ilə bağlı A.Əfəndiyevin tərtib etdiyi layihə bəyənildi və qəbul edildi. 1919-cu ildə Bakıda Dövlət Universiteti açıldı və bu universitet milli kadrların yetişdirilməsində böyük rol oynadı.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da yeni dərsliklərin, tədris planı və proqramların hazırlanması nəzərdə tutuldu. 1922-ci ildə Yeni Türk Əlifbası (YTƏ) yaradıldı. 1929-cu ildə yeni əlifbaya keçid elan olundu. Azərbaycanda savadsızlığın ləğvi ilə bağlı kurslar açılırdı.

Birinci fəslin *«H.K.Sanılının həyatı və pedaqoji fəaliyyəti»* adlı ikinci yarımfəsli Hacı Kərim Sanılının həyatı və pedaqoji fəaliyyətini əhatə edir. Burada qeyd olunur ki, H.K.Sanılı 1878-ci il fevral ayının 12-də Qazax qəzasının Çaylı Kəsəmən kəndində anadan olmuşdur. İlk təhsilini doğma kəndlərində almışdır. Oxumağa böyük marağını görən ədibin ailəsi onun təhsilini davam etdirmək qərarına gəlir. H.K.Sanılı 1893-cü ildə Qori Müəllimlər Seminariyasına daxil olur. Ailəsinin maddi vəziyyəti ağır olduğuna görə, seminariyanın rəhbərliyinin qərarı ilə dövlət hesabına oxuyur. Təhsil aldığı müddətdə həm seminariyanın rəhbərliyinin, həm də tələbə yoldaşlarının diqqətini savadlı, tərbiyəli, nəzakətli, səmini olması ilə cəlb edir.

H.K.Sanılı 1898-ci ildə pedaqoji fəaliyyətə başlayır. Əvvəlcə Zəngəzur uyezdinin Xaçmaz məktəbində fəaliyyət göstərməyə başlayır.1902-ci ildə Gəncədəki məscid yanında rus-tatar məktəbi açmağa müvəffəq olur. Məktəb əvvəlcə qeyri-rəsmi fəaliyyət göstərir. Uzun yazışmalardan sonra maarifçi-pedaqoq məktəbi rəsmiləşdirir. H.K.Sanılı qızları da məktəbə cəlb etmək istəyir. Lakin mürtəce insanlar tərəfindən sıxışdırılmağa başlayır və həyatının xilası üçün buranı tərk etmək məcburiyyətində qalır. Bir müddət işsiz qalan H.K.Sanılı xeyli yazışmalardan sonra Poylu birsinifli kənd məktəbində müəllim -nəzarətçi kimi pedaqoji fəaliyyətə başlayır. 1906-cı ildə Dağkəsəmən məktəbində rus dili müəllimi işləyir və həmin ildən də siyasi fəaliyyətə qoşulur. Əvvəlcə «Difai», sonra «Müdafiə» partiyasının üzvü olur. İftiralara, böhtanlara məruz qalmış H.K.Sanılı həbs olunur, evi, məktəbdəki iş otağı yoxlanılır və əsaslı fakt tapılmadığı üçün azadlığa buraxılır.

H.K.Sanılı pedaqoji fəaliyyətini davam etdirir. O, 1910-cu ildə Sankt-Peterburqa ezam edilir və əl əməyi kursunda iştirak edir. Kursu

müvəffəqiyyətlə bitirdikdən sonra şəhadətnamə ilə qayıdır və əl əməyindən dərs deməyə başlayır. 1913-cü ildə Stanislav ordeni ilə təltif edilir və çətinliklə onu almağa müvəffəq olur. 1914-cü ildə Qazax ali başlanğıc məktəbində rəsmxətt və rəsm müəllimi işləyir. Bir müddətdən sonra «Hümmət» partiyasına daxil olur və yenidən həbs olunur.

1919-cu ildə «Yeni sərgilər» adlı şeir kitabını çap etdirir və Bakıda fəaliyyətini davam etdirir. 1924-cü ildə «Böyüklər üçün əlifba kitabı», 1926-cı ildə F.Ağazadə, Y.Əliyevlə müştərək şəkildə «Zəhmət məktəbi», 1927-ci ildə «Türk əlifbası», Ö.F.Nemanzadə və N.Axundovla birlikdə «Üçüncü il» dərsliklərini nəşr etdirir. Uşaqlar üçün «Dəli öküz», «Meymun və ilan» adlı kitabçaların çapına nail olur. 1929-cu ildə maarifçi-pedaqoq Ə.Seyidovla birlikdə «Türk əlifbası» dərsliyini yazır. Bu dərslik və «Üçüncü il» dərsliyi bir neçə dəfə təkrar nəşr edilmişdir. Dərsliklər o dövrdə nəşr olunan dərsliklər içərisində özünəməxsus yer tuturdu.

1927-ci il H.K.Sanılı yaradıcılığının ən məhsuldar dövrüdür. O, ədəbi fəaliyyətini də davam etdirərək «Namus davası», «Zülmün sonu», «Novruz və Gülara», «Turut qaçaqları» poemalarını nəşr etdirir.

H.K.Sanılı 1933-1935-ci illərdə Azərbaycan İstehlak Kooperasiya İnstitutunda, 1935-1936-cı illərdə Ticarət İnstitutu nəzdindəki işçi fakültəsində, 1936-1937-ci ildə 25 saylı orta məktəbdə rus dilindən dərs demişdir. Habelə Bakı şəhər maarif şöbəsində inspektor vəzifəsində çalışmışdır. H.K.Sanılı da, H.Cavid, Ə.Cavad, M.Müşfiq kimi müstəqillik ideyalarının qurbanı olmuşdur.

Dissertasiyanın ikinci fəsli **«Hacı Kərim Sanılının təlim haqqında fikirləri»** adlanır. Fəslin *«Məktəb və müəllim haqqında»* ilk yarımfəslində ədibin təhsilin məzmunu, ümumi, icbari və pulsuz olması, məktəb və müəllim haqqında fikirləri müqayisəli şəkildə təhlil və tədqiq edilir. Bu mütərəqqi fikirlərin formalaşmasında Qori Müəllimlər Seminariyasında aldığı təhsil -tərbiyənin əhəmiyyətli rol oynadığı əsaslandırılır. O, maarif-çiliyi , millətin savad almasını , təhsilə və elmə yiyələnməsini istiqlalın və zülmdən qurtulmağın əsas şərti hesab edirdi.

Yoldaşlarım! Gərəkdir hər bir insan
Yaşamağın yolu nədir öyrənsin
Elm ilə sənətə möhkəm dirənsin

H.K.Sanılı təhsilin həyatla əlaqəsini vacib prinsip sayaraq qeyd edirdi ki, məktəbin işi yalnız nəzəri biliklər verməkdən ibarət olmamalı, uşaqlarda həyat üçün zəruri bacarıqlar aşılamalı, yerli şəraitdən aslı olaraq «dəmir döymək», «ağac yonmaq», «bağ salmaq», «arı saxlamağı» onlara öyrətməlidir.

H.K.Sanılının nəzəri irsində qadınların təhsili məsələsi mühüm yer tutur. O, H.Zərdabi, Ü.Hacıbəyov və S.S.Axındovun qızların təhsilə cəlb olunması ilə bağlı mövqeyini müdafiə edir, qızların təhsil almasının vacibliyini «Kənd qızı», «Evdar qadınlara», «Şərq qadını» məcmuəsinə», «Xoş gəlir « adlı şeirlərində obrazlı şəkildə ifadə edirdi.

H.K.Sanılının müəllimlə bağlı fikirləri də maraq doğurur. O, müəllimi maarif və mədəniyyətin carçısı hesab edir və onu «bağdakı bağbana», «loğmana» bənzədirdi. Bağban öz bağını necə saxlayır, becərirsə, müəllim də şagirdlərinə qarşı elə olmalıdır, loğman dərdlərə dərman tapdığı kimi, müəllim də uşaqları cəhalət xəstəliyindən qorumalıdır.

Məktəbdə müəllim, bağdada bağban,
Tarlada aqronom olur hər zaman.
Təbib tək dərdlərə qılın siz dərman,
Elin naçarları gözləyir sizi.

H.K.Sanılıya görə, müəllim şagirdlərin fəallığına, onlarda tədqiqatçılıq və müstəqil düşüncə qabiliyyətlərinin inkişafına xüsusi diqqət verməlidir.

İkinci fəslin ikinci yarımfəsli *«Təhsilin məzmunu, təlimin prinsipləri və metodları haqqında»* adlanır. XX əsrin əvvəllərində Avropa və rus elmi-pedaqoji fikrinin təsiri ilə Azərbaycanda təhsilin məzmunu, prinsip, metod və təşkili formaları ilə bağlı nəzəri fikirlər formalaşdı. Maarifçilərimiz Rusiya müsəlmanlarının, Azərbaycan müəllimlərinin qurultaylarında, xeyriyyə cəmiyyətlərinin toplantılarında, dövrü və peda-qoji mətbuat səhifələrində mütərəqqi Avropa təhsil ənənələrinin tətbiqi ilə bağlı ciddi müzakirələr apardılar. Milli məktəblərin yaradılması, dərs-liklərin hazırlanması, müəllim kadrlarının hazırlanması, qadın təhsili, təhsilin məzmununda milliliyin gözlənilməsi kimi mühüm pedaqoji məsələlər onların fəaliyyətinin əsas məğzini təşkil edirdi. Bu mütərəqqi pedaqoji ideyaların həyata keçirilməsində fədakarlıqla çalışan maarif-pərvərlərdən biri də H.K.Sanılı idi. O yalnız nəzəri fikirlər irəli sürməklə kifayətlənmir, praktik olaraq həmin ideyaları işlədiyi məktəblərdə tətbiq edir, hazırladığı dərsliklərdə zəruri tələbləri – pedaqoji prinsip və metodları nəzərə alırdı. Bunları tərtib etdiyi dərsliklərdə aydın görmək olar. O, «Böyüklər üçün əlifba kitabı»nı tərtib edərkən həm özünün, həm də digər maarifpərvərlərin şeirlərindən, hekayələrindən, tərcümələrindən və bir sıra maraqlı elmi-kütləvi mətnlərdən istifadə etmişdir. «Savadsız adam kor kimidir», «Sərçə», «Məktəb», «Hindli və ingilis», «Zəhmət məktəbi» və s. mətnlər şagirdlərdə elmə, təhsilə maraq oyatmaq baxımından böyük əhəmiyyət kəsb edir.

F.Ağazadə və Y.Əliyevin 1926-cı ildə nəşr edilən «Zəhmət məktəbi» dərsliyi ilk sovet dərsliklərindən hesab olunur. 182 səhifədən ibarət olan dərslik o dövrdə dərsliklər üçün nəzərdə tutulan pedaqoji- psixoloji və metodiki tələblərə ciddi şəkildə əməl etməklə tərtib olunmuşdur.Dərslik müəllimlər üçün « Bir neçə söz» adlı təlimatla başlayır. Burada mövzularla bağlı müəllimlərə zəruri tövsiyələr verilir, metodiki yollar göstərilir. Dərslikdə verilən «Növbətçilər siyası», «Vaxtı nə ilə ölçürlər», «Poçt qutusu», «Təmizlik», «Koperativ dükanı», «Ev heyvanları», «Avtomobil», «Fəhlə mahnısı», «İnternasional marşı», «Peşəçilər», «Çoban» kimi şerlərdə şagirdlərə təbiət və cəmiyyət haqqında hərtərəfli biliklərin verilməsi təbliğ olunur, ümumi təhsilin insanın şəxsiyyət kimi formalaşmasında əhəmiyyəti önə çəkilir.

1927-ci ildə H.K.Sanılı «Türk əlifbası» adlı dərslik nəşr etdirir. Həmin dərslik də müəllimlərə müvafiq metodiki tövsiyələrin verilməsi ilə başlayır. Şagirdlərdə pabitəli nitqin inkişafında şəkillər üzərində iş aparmağın, hərflərlə yanaşı rəqəmlərin öyrədilməsinin, riyazi işarələrlə tanışlığın səmərəli yolları tövsiyə olunur. «Məktəbdə, «Bayramın külfəti», «Pəri ilə Sona birinci dəfə inək sağırlar», «Günümüz», «Biz evimizin işini belə bölmüşük», «Ana və uşaqları»adlı şer və hekayələrdə, elmi-kütləvi mətnlərdə cəmiyyət və təbiət hadisələri, fauna və flora haqqında geniş məlumatın verilməsi nəzərdə tutulur.Uşaqlara kiçik yaşlarından müxtəlif peşələr haqqında qısa məlumatların verilməsi baxımından da həmin mətnlər əhəmiyyətlidir..

H.K.Sanılı elə həmin ildə Ö.F.Nemanzadə və A.Axundovla birlikdə «Üçüncü il» adlı yeni dərslik çap etdirir. Dərslikdə verilən nəzəri-praktik materiallar uşaqların elmi dünyagörüşünün inkişafını təmin etməklə yanaşı, onlarda valideynə məhəbbət, balacalara qayğı, böyüklərə hörmət, yoldaşlıq, düzlük və doğruçuluq, sadəlik kimi əxlaqi keyfiyyətlərin tərbiyə edilməsini əhatə edirdi. Bu dərslik ilin fəsillərinə uyğun olaraq dörd bölmədən və 156 səhifədən ibarətdir. Hər bir fəslin xarakterinə uyğun mətnlər öz əksini tapmışdır. Məsələn «Yay», «Həsənin ot biçməsi», «Atamın məzuniyyətə buraxılması», «Köçəri quşlar», «Payız işləri», «Axar çay», «Arıçı söhbəti», «Çəltik» və s.

Dərsliyin bir hissəsi kənd həyatına həsr edilmişdir. «Yeni kəndimizin planı», «Kəndimizin ətrafı», «Kəndimizi öyrəndik», «Qonşu dairələr», «Qazax şəhəri» və s. mətnlər bu cəhətdən maraqlıdır. Kitabda verilən şəkillərin əksəriyyəti Azərbaycan xalqının məişətini özündə əks etdirir. Dərslikdə zəruri pedaqoji-metodiki tələblərin,prinsipləri gözlənilməsinin nəticəsidir ki, 1928, 1929, 1930-cu illərdə yenidən nəşr edilmişdir.

1929-cu ildə H.K.Sanılı professor Əhməd Seyidovla birlikdə birinci ilə məxsus «Türk əlifbası»nı nəşr etdirir. Bu dərslik də «bütöv kəlmə» üsulu ilə tərtib edilmişdir. Dərslikdə həm hərflərin, həm də rəqəmlərin öyrədilməsi üçün maraqlı üsul və vasitələrdən istifadə edilmişdir. Bu məqsədlə çöplər, barmaqlar, dairəcik və d. əşyaların köməyi ilə saymaq faydalı yol hesab edilir. Şagirdlərə elmi biliklərlə yanaşı praktik bacarıqlar da aşılanır. Həmçinin təbiət hadisələri haqqında elmi məlumatlar verilir, cəmiyyət hadisələri nəzərdən keçirilir, insanların gündəlik məişəti ilə bağlı biliklər verilir. Dərsliyin yüksək səviyyədə tərtibi, quruluşu, illüstrasiyası müəlliflərin tədris – metodiki ustalığının göstəricisidir. Bu dərsliyin tərtibində H.K.Sanılının dərslik yaradıcılığındakı təcrübəsi özünü göstərir. Dərslik bəzi dəyişikliklərlə 1930-cu ildə yenidən nəşr edilmişdir.

Dissertasiyanın III fəsli **«Hacı Kərim Sanılının tərbiyə haqqında fikirləri»** adlanır. «*Tərbiyənin mahiyyəti və məzmunu haqqında»* adlı birinci yarımfəsildə H.K.Sanılının əsərlərində tərbiyənin ümumi məsələləri nəzərdən keçirilir, tərbiyənin məqsədi xalqını, millətini sevən, mübariz, mənəvi cəhətdən saf, fiziki cəhətdən sağlam, zəhməti sevən, milli adət və ənənələrə, dəyərlərə bağlı, sağlam əqidəyə malik insanların yetişdirilməsi hesab olunur.

H.K.Sanılı da dövrün maarifçiləri kimi, şəxsiyyətin inkişafında irsiyyətin və tərbiyənin böyük gücünü göstərməyə çalışmış, lakin mühitə və tərbiyəyə daha çox üstünlük vermişdir. «Zülmün sonu», «Novruz və Gülara», «Turut qaçaqları», «Qara Nəbi» əsərlərində göstərir ki, yoxsul və kimsəsiz uşaqların faciəsinin əsas səbəbkarı mövcud ictimai quruluşudur. Mühitin, yaşadığı dövrün insanın mənəviyyatına ağır zərbələr vurmasını, hətta fiziki cəhətdən məhvinə səbəb olmasını şair «Turut qaçaqları» poeması nda Aişə qarının dili ilə belə deyir:

- Vay! – deyir Ayişə, - qohum-əqrəbam!
Yoxsul bağçanızın gülü talandı,
Bəxtinizin çərxi tərsə dolandı!
İstər yaxşı çalış, istərsə yaman...
Yıxılsın, görüm ki, bu ağır dövran!

H.K.Sanılı ictimai-siyasi qayəli şeirləri ilə XX əsrin əvvəllərində müstəqillik uğrunda mübarizə aparanların yanında idi , daha gözəl, daha firavan həyatın yaranmasının arzusunda idi. İctimai düşüncələrin ifadəsinə çevrilmiş əsərlərində əsas diqqət insanların mənəvi aləminə, onun taleyinə, keçirdiyi psixoloji vəziyyətin təsvirinə verilmiş, böyüyən nəsildə əqli, əxlaqi, estetik, əmək, fiziki keyfiyyətlərin kompleks şəkildə formalaşdırılması əsaslandırılır, əxlaq, əmək, fiziki, estetik və ailə tərbiyəsi

haqqında fikirləri ümumiləşdirilir. Göstərilir ki, gənc nəsldə insanpərvərlik, səmimilik, əməksevərlik, vətənpərvərlik, mərdlik, yoldaşlıq, dostluq milli-mənəvi dəyərlərin aşılanması və s. əxlaq tərbiyəsinin əsas vəzifələridir. Bu vəzifələrin həllində H.K.Sanılı məktəbin roluna, müəllimin şəxsi nümunəsinə, tədris edilən fənlərin məzmununa xüsusi əhəmiyyət verirdi. O, vətənpərvərliyi əxlaq tərbiyəsinin mühüm komponenti kimi təhlil edir, onun məzmununu müəyyənləşdirir. H.K.Sanılıya görə vətənpərvərlik uşağın doğulub-böyüdüyü yerdən başlayıb bütün Azərbaycanı sevməyi əhatə etməlidir. Odur ki, Vətən üçün xidmət etməyə hazır olmaq hər kəsin borcudur. Şair-pedaqoq hesab edirdi ki, gənclər elm alıb, maariflənib doğma yurda dönərək, onu abadlaşdırmalıdırlar. «Novruz və Gülara» poemasında Novruzun dili ilə istəyini bildirir:

Elm oxuyaq, ancaq burda qalmayaq,
Qoy biz gedək kəndi abad eyləyək.

H.K.Sanılı «Qara Nəbi» pyesində bu məsələni daha əhatəli vermişdir. Nəbinin oğlanları Sadıq, Qənbər və Novruz mükəmməl təhsil alıb, doğma kəndə qayıdıb, biri müəllim, biri mühəndis, üçüncüsü isə hərbçi kimi xalqına, millətinə, vətəninə xidmət göstərməyə gəlmişlər.

H.K.Sanılı böyük rus pedaqoqu K.D.Uşinski kimi vətən məfhumuna yalnız vətənin təbiətini, onun gözəlliklərini deyil, həm də öz ana dilini sevməyi daxil edirdi. O, Azərbaycan dilinin saflığı uğrunda mübarizə apararaq bunu eyni zamanda vətənpərlik işinin mühüm tərkib hissəsi hesab edirdi. Ana dilinə xor baxanları, danışanda yabançı sözlərə üstünlük verənləri tənqid edirdi. H.K.Sanılı yalnız vətənpərlik ideyalarının təbliği ilə kifayətlənməmiş, özü də bu sahədə əməli fəaliyyət göstərmişdir. Onun həyat yolu, xalqa və vətənə xidmət etməyin ən yaxşı nümunəsidir.

H.K.Sanılı əxlaqi keyfiyyətlərin sırasında insanpərvərliyin, humanizmin aparıcı rola malik olduğunu göstərirdi. O, «Zülmün sonu», «Namus davası», «Turut qaçaqları» poemasında, şeirlərində mərhəmətli olmaq, xeyirxahlıq etmək, yaxşını pisdən seçmək kimi mənəvi keyfiyyətləri təbliğ edirdi. İnsanlığı alqışlayan pedaqoq, haqsızlığa susmamağı tövsiyə edir:

Yaşama dünyada, olma gəl rəzil,
İnsansan, unutma, öz qədrini bil!
Əyilmə zalıma, haqqını qoru!
Qorxma, yağdır onun başına qoru!

H.K.Sanılıya görə xeyirxahlıq edən, insanlıq göstərən hər kəs xeyirxahlıqla qarşılanır və həmişə qalib gəlir.

H.K.Sanılı əxlaq tərbiyəsində yoldaşlıq və dostluğa geniş yer vermişdir. Dost çətin vaxtda, dar ayaqda dostunun köməyinə çatmalıdır, lazım gəldikdə dost yolunda canından keçməyi bacarmalıdır. «Turut qaçaqları» romanında Əjdər, Qurban, Osman həqiqi dost və sirdaşdırlar. Bu ədəbi surətlər arasındakı dostluq nümunə kimi oxucuya təsir edir və onda dostluqda vəfalı və sədaqətli olmaq, dost yolunda hər cür çətinliyə dözmək kimi əxlaqi keyfiyyətlərin yaranmasına səbəb olur.

H.K.Sanılıya görə əxlaq tərbiyəsində mərdlik və igidliyin də öz yeri vardır. Onun özü də məğrur və əyilməz adam idi və bu məğrurluğun əzabını da bütün ömrü boyu çəkmişdir. H.K.Sanılı əsərlərində mərd, igid adamları gənclərə nümunə göstərirdi. «Turut qaçaqları»nda Osman obrazını aşağıdakı kimi təsvir edir:

Atışma vaxtında şir kimi qızan,
Birinci zərbədə qoşunu pozan,
Tüfəngin üstünə aslan tək süən
Düşməndən silahı yerə tökdürən
Qızılgöz Osmanı tanıdı mahal,
Düzüldü adına dillərdə masal!

İgidliyi, mərdliyi və dostluğu tərənnüm edən şair, xəyanəti, qorxaqlığı, namərdliyi pisləyir və əxlaqsızlığı lənətləyirdi.

H.K.Sanılı dəyər verdiyi keyfiyyətlərdən biri də gənc nəsildə xoş gələcəyə inamdır. O, öz xalqının real vəziyyətini aydın dərk edirdi, lakin yenə ümidini itirmir, xoş arzularla yaşayırdı. Şair Azərbaycanın gözəl gələcəyindən fərəhlənir və ilham alırdı.

Toy evi tək Azərbaycan
Bəzənəcək yaxın zaman.
Dərin dərə, qalın orman
Qaranlıqdan çıxacaqlar.

O, gənc nəslin gələcəyə inam ruhunda tərbiyəsini yüksək dəyərləndirir, əxlaq tərbiyəsinin əsasında milli dəyərlərin, adət və ənənələrin gözlənilməsini vacib hesab edirdi. «Aran köçü» poemasında illərlə formalaşmış və insanların əxlaqında yer tutmuş qaydaları, adət və ənənələri sadə və anlaşıqlı dildə təsvir edir, onları gəncliyin həyata hazırlanmasında əsl milli tərbiyə məktəbi hesab edirdi. «Namus davası» poemasında elin toy adətləri - elçilikdən başlamış, gəlin köçənədək bir sistem halında təsvir edilir, gənc qızların bu ruhda böyüdülməsi təbliğ edilir. Bu cür nümunələr vasitəsilə H.K.Sanılı gəncləri doğma yurda, el-obaya hörmət ruhunda tərbiyə edir, xalqın min illər ərzində qazandığı və qoruyub saxladığı adət-

lərin gələcək nəsillərə ötürülməsinin vacibliyini əsaslandırır. Milli mənəvi dəyərlərin qorunması və təbliği onun əsərlərinin əsas məğzini təşkil edir.

H.K.Sanılının pedaqoji ideyaları içərisində ən vacib yeri əmək tərbiyəsi tutur. O, zəhmətkeş insanların əməyini yüksək qiymətləndirir, uşaqlarda əmək qabiliyyətlərinin inkişafını tələb edirdi. H.K.Sanılı şagirdləri əməyə, qurub-yaratmağa sövq edir, zəhmətlə yaşamağa çağırır. «İşçi mahnısı», «Zərbəçi qızlar», «Zərbəçi Bəsti», «Əkinçi», «İşçi qadın və xanım» və b. şerlərində şagirdlərdə əməyə sevgi hissləri oyadır, onları yaradıcı əməyə səsləyir. «İşçi mahnısında» deyilir:

Bu dağların sinəsini yarmışıq,
Tellər ilə ölkələri sarmışıq.
Deşib yerin lap dibinə varmışıq,
Dəmir, kömür çıxarırıq oradan.

Biz orduyuq, silahımız çəkicdir,
Toplarımız, tüfəngimiz hər işdir,
İşləmək çağıdır, meydan genişdir,
Məzlum ellər kömək umur buradan.

H.K.Sanılı həmçinin uşaqları və gəncləri müftəxorluqdan, tüfeylilikdən uzaq olmağa çağırırdı. Bu xətt dərsliklərin tərtibində, əmək tərbiyəsi ilə bağlı mətn və şeirlərin seçilməsində əsas prinsip kimi götürülüb və ondan ustalıqla istifadə edilib.

Şair-pedaqoq fiziki tərbiyəyə də böyük əhəmiyyət verir və bu işdə təbii vasitələrdən, rejimdən, idman və oyundan istifadə olunmasını vacib hesab edirdi. H.K.Sanılıya görə fiziki sağlamlıq ruhi sağlamlığı şərtləndirir. O, «Salamatlıq» şeirində fiziki sağlamlığın əhəmiyyətindən bəhs etmiş, şagirdlər üçün aşağıdakı qaydaları müəyyənləşdirmişdir: «çirkli paltar geyinmə», «dəli atı minmə», «tərli-tərli su içmə», «dərin çaydan tək keçmə» və s. H.K.Sanılı idmanı şagirdlər üçün ən vacib vasitələrdən biri hesab edirdi. Fiziki hərəkətlər bədəni möhkəmləndirir, əzələlərin gücünü artırır. İdman şagirdlərin qamətlərinin formalaşmasına da təsir edir. Şair-pedaqoq idmanın xeyrini aydın dərk edir və deyirdi: «İdman bədəni qüvvətləndirir, idman canı bərkidir, idman edin!»

Qeyd edilənlərlə yanaşı H.K.Sanılı gigiyenik qaydaların faydasını, düzgün inkişaf üçün rolunu vacib sayırdı. «Üçüncü il» dərsliyində fiziki sağlamlığı qorumaq məqsədilə «Bəla çarıqdan gəldi», «İsitmə azarı», «Yaşadığımız ev necə olmalıdır», «Qotur azarı», «Qızılca azarı», «Paltara fikir verilməlidir», «İlyas nədən azarladı», «Həsənin azarı» mətnləri verilib. Həmin mətnlərdə o, təmizliyi sağlamlığın ən vacib şərti hesab edirdi.

H.K.Sanılı estetik tərbiyənin əsas vəzifəsini şagirdlərdə düzgün estetik zövqün formalaşdırılmasını, gözəlliyi duymaq, anlamaq, qiymətləndirmək və onları estetik fəaliyyətə cəlb etməkdə görürdü. Bu vəzifələrin həllində teatrı, xalq musiqisini, təbiəti, oyunu vacib vasitə hesab edirdi.

H.K.Sanılının ədəbi-bədii irsində ailə tərbiyəsi məsələləri xüsusi yer tutur.Onun təsvir etdiyi ailə tərbiyəsinin əsasında uşağa məhəbbət, onun gələcək xoşbəxtliyi üçün əzab-əziyyətə qatlaşmaq, milli-mənəvi dəyərlərin formalaşması durur. Bu məsələlər onun «Zülmün sonu», «Qara Nəbi» əsərlərində və tərtib etdiyi dərsliklərdə öz geniş həllini tapmışdır. Şair-pedaqoq milli köklərə həddindən artıq bağlı adam idi. Ailə tərbiyəsində ananın rolunu xüsusi vurğulayaraq, onun laylasının əhəmiyyətini belə göstərirdi:

Sizsiniz evlərə qoyan binanı,
Bəsləyən, böyüdən körpə balanı.
Dilinizdə gəzən şirin laylanı,
Aşıqlar sazında çala bilməzlər.

H.K.Sanılı ana laylasının əvəzolunmaz tərbiyəvi gücə malik olduğunu qətiyyətlə müdafiə etmişdir.

H.K.Sanılının pedaqoji fikirləri sırasında qadın azadlığı və təhsili də özünəməxsus yer tutur. O, qadının cəmiyyətdəki mövqeyini düzgün dərk edir, onu buxovlardan azad, elmli, təhsilli görmək istəyirdi. Fəslin « *Qadın təhsili və tərbiyəsi haqqında*» yarımfəslində məhz bu məsələlər öz elmi-pedaqoji həllini tapmışdır. Qeyd edək ki, XX əsrin əvvəllərində qadın təhsili və tərbiyəsi məsələsi maarifçilərimizi narahat edən ən ciddi problemlərdən biri idi. Ona görə də onlar qadınların təhsil alması üçün məktəblərin açılmasını vacib hesab edir, böyüyən nəslin sağlam, milli – mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyəsində ananın rolunu vacib hesab edirdilər. H.K.Sanılının «Evdar qadınlara», «Kənd qızı», «Şərq qadını» məcmuəsinə, «İşçi qadın və xanım», «Çadra əsirləri», «Zərbəçi qızlar» şerlərində, «Namus davası», «Zülmün sonu» poemalarında və tərtib etdiyi dərsliklərdə qadın azadlığı və təhsili məsələlərinə geniş toxunmuş, onların təhsili-tərbiyəsi, hüquqlarının qorunması, azadlıqları vacib məsələ kimi önə çəkilmişdir. H.K.Sanılını narahat edən məsələlərdən biri qadınların çadra altında inləməsi idi. Onun «Çadra əsirləri» şerində də bu açıq-aydın hiss olunur. O, çadranı «kəfən» adlandırır və bildirir ki, çadra geyən hər cür hüquqları tapdalananlar, diri-diri ölmüşlərdir».

Durmuşdu qarşımda,
İri qəbristan:

Bəxti qaraların
Baxıb halına,
Yanardım onların
Qara falına...

Şairi qadınların bu acınacaqlı halına təəssüf edir. H.K.Sanılı qadınları qurub yaratmağa, namuslu əməyə çağırmış və onlarda yüksək əxlaqi keyfiyyətlərin tərbiyə edilməsini zəruri hesab etmişdir. Onun Gəncədə qız məktəbi açmaq təşəbbüsü baş tutmasa da, bu böyük bir cəsarət və şair pedaqoq üçün qadın təhsilinin nə qədər əhəmiyyəti olduğunun göstəricisidir. H.K.Sanılı qadına böyük ehtiramla yanaşmış, onun qabiliyyət və istedadını qiymətləndirmiş, yüksək insani keyfiyyətlərini təqdir etmişdir.

*«Uşaq ədəbiyyatı və onun pedaqoji əsasları haqqında»* adlı yarımfəslində H.K.Sanılının uşaq ədəbiyyatı haqqında fikirləri təhlil və tədqiq olunur. H.K.Sanılının uşaqlara həsr etdiyi şerlər məzmun və tərbiyə istiqamətinə görə fərqlənirlər. Bu şeirlərin əksəriyyəti heyvanların timsalında verilmişdir. «İt və pişik», «Kirpi», «Dolaşa», «Leylək», «Aslan və meymun» şeirləri üçün oxucularda çəldlik, zirəklik, humanizm, ehtiyatlılıq kimi keyfiyyətlərin formalaşmasında böyük əhəmiyyətə malikdirlər.

H.K.Sanılının uşaq şeriləri «Meymun və ilan»(1927) və «Dəli öküz» (1927) kitabçalarında toplanmışdır. Kitabçalardakı şeirlərin dili sadə, aydın və anlaşıqlıdır. Bu isə həm mənimsəməni, həm də əzbərləməni asanlaşdırır. Aşağıdakı bəndin öyrənilməsinin tezliyi açıqca hiss olunur:

Siçan qaçdı sevindi,
Ürəkciyi döyündü.
İtciyəz mısdı getdi,
Quyruğun qısdı getdi!

Aydın, sadə dildə ifadə olunması, əyanilikdən istifadə şerlərin asanlıqla və tez mənimsəməsini təmin edir. Hər iki kitabçada illüstrasiyalardan geniş istifadə edilmişdir. Qeyd etmək istərdik ki, bu şeirlər yalnız uşaqların deyil, böyüklərin də diqqətini cəlb edir, düşündürür, mənəvi qida verir. H.K.Sanılıya görə uşaq ədəbiyyatı uşaqların yaş xüsusiyyətlərinə uyğun və əyləncəli olmalıdır. Onlar təbiət və cəmiyyət haqqında geniş məlumat verməli əqli qüvvələri inkişaf etdirməlidir.

Tədqiqatda apardığımız təhlilə əsaslanaraq bir sıra nətijələri irəli sürə bilərik:

1. XIX əsrin sonu - XX əsrin əvvəllərində gedən ictimai – siyasi proseslər, xalq hərəkatı, baş verən inqilabi dəyişikliklər, yeniləşmə, demokratik meyillərin güclənməsi, azadlıq və milli – mənəvi dəyərlər

uğrunda mübarizə başlıca problemlər kimi özünü göstərirdi. Rusiyada siyasi cəhətdən oyanmış xalq çar üsul - idarəsini ləğv etməyi, öz hüquqlarının təmin olunmasını ardıcıl və qətiyyətli şəkildə irəli sürürdü. Bütün bunlar Azərbaycanda da özünü göstərir, həyatın hər bir sahəsində əsaslı dönüş yaradılmasını zərurətə çevirirdi. Xalq maarifi, təhsil və məktəb işinin yeniləşməsi, kütləvi savadsızlığın aradan qaldırılması aparılan mübarizənin əsas istiqamətləri hesab edilirdi. Görkəmli ziyalılar, qabaqcıl maarifçilər məktəbin və təhsilin inkişafı uğrunda bütün səylərini birləşdirərək zamanın tələbinə uyğun əməli işlər görürdülər. Bunların sırasında Hacı Kərim Sanılı özünəməxsus yer tutur.

2. Qori Müəllimlər Seminariyasının məzunu olmuş H.K.Sanılı Azərbaycanda məktəb və təhsilin inkişafında fəal iştirak etmiş, məhrumiyyətlər və çətinliklərlə dolu şərəfli ömür yaşamış, əsl maarif fədaisi olmuşdur. Dövrünün ictimai – siyasi hadisələri onun dünyagörüşünün formalaşmasına təsir göstərmişdir. O, demokratik baxışlarına yaxın olan «Hümmət», «Difai», «Müdafiə» partiyalarının üzvü olmuş, onların ideyalarını təbliğ etmişdir.

3. H.K.Sanılı təhsilin milli xarakter daşımasına xüsusi əhəmiyyət vermiş, onun təkmilləşdirilməsinə çalışmış, bu məqsədlə görülən işlərdə fəal iştirak etmiş, bu sahədə hər bir mütərəqqi yeniliyi cəsarətlə müdafiə edərək onun səmərəli tətbiqini vacib saymışdır. Ölkədə latın əlifbasına keçidin qızğın tərəfdarı olmuş, bununla bağlı tədbirlərin təşkilinə əməli köməklik göstərmiş, yaradılmış komissiyanın fəal üzvü olmuş, yeni əlifbanın tətbiqinin nəzəri – metodiki əsaslarını məqalə və çıxışlarında əsaslandırmışdır.

4. H.K.Sanılı ölkədə məktəb şəbəkəsinin zəifliyini ciddi tənqid etmiş, bununla əlaqədar çar məmurlarının laqeydliyini cəsarətlə pisləmiş, yeni məktəblərin təşkilinə şəxsi təşəbbüs göstərmiş, Gəncədə buna nail olmuş, yerli dindarların hücumuna məruz qalmış, imkanlı şəxsləri bu sahədə fəaliyyətə çağırmış, hər bir uşağın təhsilə cəlb edilməsini millətin tərəqqisi üçün vacib olduğunu göstərmişdir. Pedaqoq məktəbi cəhalət və nadanlıqdan xilas yolu sayaraq ona ümumxalq qayğısını zəruri hesab etmişdir. Bu sahədəki cəsarətli addımları müxtəlif bəhanələrlə onun dörd dəfə həbs olunması ilə nəticələnmiş, lakin qazandığı uğurları gizlədə bilməyən hakimiyyət onu Stanislav ordeni ilə təltif etmişdir. H.K.Sanılıya görə məktəb birinci növbədə ümumtəhsil vəzifəsini həll etməli, bunun üçün milli və yerli xüsusiyyətləri nəzərə almalı, habelə qabaqcıl dünya təcrübəsi öyrənilib təbliğ edilməlidir.

5. H.K.Sanılı məktəb işinin səmərəli təşkilində müəllimi əvəzolunmaz sima hesab etmişdir. Onun şəxsi nümunəsini güclü təsir vasitəsi saymışdır. Müəllim peşəsini sevməyi, daim öyrənməli, müsbət davranış adətlərinə yiyələnməli, uşaqları yaxından tanımalı, onların fərdi xüsusiyyətlərini nəzərə almağı bacarmalıdır. Fənnin tədrisi metodikası məsələlərini daim təkmilləşdirməlidir. Dərsdə uşaqların fəallığını təmin etməli, onları öyrənməyə həvəsləndirməlidir. Bütün bunları öz nümunəsində daşıyan şair – pedaqoq gənc müəllimlər üçün örnək olmuşdur.

6. H.K.Sanılı təhsilin məzmunu ilə bağlı problemlərin düzgün həllinə çalışmışdır. Onun fikrincə, təhsilin məzmunu dünyəvi xarakter daşımalı, uşağı əhatə edən maddi aləmi əks etdirməli, yalnız biliklərin çatdırılmasını deyil, həyat üçün zəruri olan bacarıq və vərdişlərin formalaşdırılmasını əsas tutmalıdır. Pedaqoq tərtib etdiyi proqram və dərsliklərdə deyilənləri ciddi şəkildə gözləmişdir. Xüsusilə dərsliklərin sadə, anlaşıqlı dildə yazılmasını vacib saymışdır. «Böyüklər üçün əlifba», həm tək, həm Ə.Seyidovla müştərək yazdığı «Türk əlifbası» dərslikləri, F.Nemanzadə və H.Axundovla birgə yazdığı «Üçüncü il» dərsliklərinin təhlili göstərir ki, o, bu tələblərə ardıcıl əməl etmişdir. Buna görə də dərsliklər dəfələrlə müxtəlif illərdə çap olunmuşlar.

7. H.K.Sanılı təlimin prinsip və üsullarının düzgün seçilməsi, onlardan doğan tələblərin yerinə yetirilməsinə ciddi yanaşmışdır. Prinsiplərin sırasında həyatla, yerli şəraitlə əlaqəyə, əyaniliyə, sistematiklik və ardıcıllığa, yaş xüsusiyyətlərinin gözlənilməsinə xüsusi diqqət yetirmişdir. Təlimdə fəallığı təmin edən üsullardan istifadəni vacib saymışdır. Amerikada geniş yayılmış «bütöv söz» üsulunun tətbiqinin tərəfdarı olmuş, dərsliklərin tərtibində buna xüsusi yer vermişdir. Çalışma və tapşırıqların fəallaşdırıcı roluna diqqəti cəlb etmişdir. Şəxsi müəllimlik təcrübəsində prinsip və üsullardan istifadənin metodikasına dair didaktik mülahizələrini ümumiləşdirərək müxtəlif yollarla müəllimlərə çatdırmışdır.

8. H.K.Sanılı uşaq şəxsiyyətinin formalaşmasında irsiyyət, mühit və tərbiyənin rolunu yüksək qiymətləndirmiş, mühit və tərbiyəyə üstünlük vermişdir. Onun fikrincə, mühit insanı xoşbəxt də edə bilər, cani və ya qatilə də çevirə bilər. Bədii əsərlərində buna dair nümunələr vermiş, inandırıcı faktlar göstərmişdir. Tərbiyənin səmərəli təşkilində valideynlərin rolunu və məsuliyyətini xüsusi qeyd etmişdir.

9. H.K.Sanılı tərbiyənin məqsədini vətənini, millətini dərin məhəbbətlə sevən, hər an onun yolunda ölümə hazır olan gənc nəslin yetişdirilməsində görürdü. Avamlığa, köhnəliyə, cəhalətə qarşı mübarizə aparan, xeyirxah, humanist, fiziki cəhətdən sağlam, milli – mənəvi dəyərlərə yiyələnmiş

iradə baxımından möhkəm, əqidəsindən dönməyən şəxsiyyətin formalaşdırılması maarifçinin vacib bildiyi əsas ideya idi. Tərbiyə məqsədinin həyata keçirilməsi üçün bütün təsir qüvvəllərinin vahid istiqamətdə fəaliyyət göstərməsini zəruri saymışdır. Bu sahədə yaşlı nəslin rolunu və məsuliyyətini ayrıca qeyd etmişdir. Ədəbi nümunələrin təsir imkanlarına toxunmuşdur.

10. H.K.Sanılının tərbiyəyə dair fikirləri sırasında gənc nəslin əmək tərbiyəsi xüsusi yer tutur. Uşaqların əməksevərlik ruhunda böyüməsi, zəruri əmək bacarıqlarına və vərdişlərinə yiyələndirilməsini onların hərtərəfli inkişafının vacib şərti sayırdı. Hər bir uşağın gündəlik əmək fəaliyyətinə cəlb edilməsini ailənin və məktəbin baçlıca vəzifəsi kimi irəli sürürdü. Kənd şəraitində uşaqların əmək fəaliyyətinə nəzarəti yaşlıların diqqətdə saxlanmasını mühüm amil bilirdi.

11. H.K.Sanılı gənc nəslin fiziki tərbiyəsini onların hərtərəfli inkişafının tərkib hissəsi olaraq qiymətləndirir. Bu məsələdə təbii amilləri, idmanı, şəxsi gigiyenanı, gün rejimini əsas vasitə kimi göstərirdi. Məktəbin rolunu daha ciddi hesab edir, onun ailəyə düzgün məsləhət və istiqamət verməsini vacib sayırdı. Habelə fiziki inkişafda əməyin də təsirini göstərirdi.

12. H.K.Sanılı uşaq şəxsiyyətinin formalaşdırılmasında estetik tərbiyənin xüsusi yer tutduğunu göstərirdi. Bu sahədə gözəlliyin düzgün başa düşülüb qiymətləndirilməsini, estetik zövqün formalaşdırılmasını, ətraf aləmdəki, insan əməyindəki, bədii ədəbiyyatdakı təsir imkanlarını zəruri saymış, bunun uşağa təsirini təşkil etməyi məktəbin və ailənin borcu hesab etmişdir. Musiqinin, milli mənəvi dəyərlərin estetik tərbiyədə əhəmiyyətli olduğunu vurğulamış və onun təşkilinin səmərəli yollarını seçməyini məktəbdən tələb etmişdir. O, estetik tərbiyə üzrə fəaliyyətin kompleks xarakter daşıdığını ayrıca qeyd edirdi.

13. H.K.Sanılının pedaqoji ideyaları sırasında Azərbaycan qadınına olan münasibəti ayrıca yer tutur. O, cəmiyyətdə qadının lazımınca qiymətləndirilmədiyindən təəssüflənirdi. Bu sahədə əməli addım ataraq Gəncədə qız məktəbi açmağa təşəbbüs göstərmiş, böhran dövründə də bu istiqamətdə xeyli işlər görmüşdür.

14. H.K.Sanılı ailə tərbiyəsi ilə bağlı da maraqlı fikirlər söyləmişdir. O, ailədə qarşılıqlı münasibətin, etimad və etibarın olmasına xüsusi əhəmiyyət vermişdir. Uşağa vahid tərbiyəvi təsir xəttinin yaradılmasında məktəblə ailənin əlbir işləməsini əhəmiyyətli saymış, hər bir ata və anadan valideynlik borcuna məsuliyyətlə yanaşmağı, müsbət nümunələr göstər-

məyi, vahid tələblərə əməl etməyi ailə tərbiyəsində başlıca vəzifələr hesab etmişdir.

15. H.K.Sanılı əxlaq tərbiyəsinə ayrıca yer verir və onun məzmununda vətənpərvərlik, yoldaşlıq və dostluq, düzlük və doğruçuluq, humanizm, sadəlik və təvazökarlıq, mərdlik və igidlik, milli mənəvi dəyərlər, milli şərəf və ləyaqəti əsas hesab edir, lovğalıq, kobudluq, yalançılıq, xəyanətkarlıq, ikiüzlülük kimi keyfiyyətləri pisləyir, gənc nəsli bundan uzaq olmağa çağırırdı. Dərsliklərindəki mətnlərdə, ədəbi irsində konkret nümunələr göstərir.

H.K.Sanılı gənc nəslin tərbiyəsində uşaq ədəbiyyatının rolunu da yüksək qiymətləndirmiş, Azərbaycan uşaq ədəbiyyatını zənginləşdirənlərdən olmuşdur. O, uşaq ədəbiyyatından sadə, aydın, obrazlı, bədii dil, yüksək ideallıq, konkretlik, həyatilik, əyləncəlik tələb etmiş, elmi dünyagörüşü yaratmağı, yaş və psixoloji xüsusiyyətləri nəzərə almağı vacib bilmişdir.

Tədqiqatın əsas məzmunu müəllifin dərc etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:


1. H.K.Sanılının təlim haqqında fikirləri / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş umumrespublika konfransının materialları. Bakı, Qafqaz Universiteti, 2010. 4-5 may, s.405-407
2. H.K.Sanılının dərslikləri // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, Gəncə, 2010, №2, s. 230-232.
3. H.K.Sanılının əsərlərində milli-mənəvi dəyərlər // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, Gəncə, 2010, №3, s.219-221.
4. Hacı Kərim Sanılı ümumtəhsil haqqında /Azərbaycan inkişaf etmiş cəmiyyətə doğru: reallıqlar, perspektivlər. Gənc tədqiqatçıların 2 fevral – Gənclər Gününə həsr edilmiş ümumrespublika elmi – praktik konfransının materialları. Bakı, Azərbaycan Universiteti, 2011, 2-3 fevral, s.148-149.
5. H.K.Sanılının əsərlərində vətənpərvərlik tərbiyəsi / «Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri» mövzusunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə və müasir Azərbaycan dövlətçiliyinin 93 illiyinə həsr olunmuş konfransın materialları, Bakı, «Azərbaycan Universiteti, 2011, 4-5 may, s. 393-395.
6. Вопросы воспитания в произведениях Г.К. Санылы // «Интеллект» Международный периодической научный журнал. Gürcüstan,Tbilisi, 2011, №1(39), s. 104-106
7. H.K.Sanılı qadın təhsili və azadlıgı haqqında / «Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri» mövzusunda

beynəlxalq elmi konfransın materialları. Naxcıvan, 2011, 27-28 iyun, s.227-228.

8. Görkəmli Azərbaycan maaarifçisi Hacı Kərim Sanılı: Həyatı və pedaqoji fəaliyyəti // Azərbaycan Dövlət Pedaqoji Universitetin Xəbərləri (Pedaqoji-psixoloji elmlər seriyası), Bakı, 2012, №2, s. 303-308.

9. Педагогические взгляды Гаджи Керима Санылы // ВЕСТНИК серия педагогической науки. Казахский Национальный Университет имени Аль Фараби. Алматы, 2012, №1 (35), стр.68-70

10. Hacı Kərim Sanılı estetik tərbiyə haqqında // Azərbaycan Respublikası Təhsil Problemləri İnsitutu «Elmi əsərlər», Bakı 2012, №3, s.152-154

11. Hacı Kərim Sanılının «Böyüklər üçün əlifba» dərsliyi // Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları. II cild Bakı, 2013. s.188-189

12. Известный просветитель Гаджи Керим Санылы и его педагогическое наследие. // Sixth International Conference "Modern Challenges of Education" of Gori State Teaching University" 2013. s.135-137

13. Hacı Kərim Sanılı müəllim haqqında // Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları // Bakı, 2013. s.323-325

14. Hacı Kərim Sanılı gənc nəslin əmək tərbiyəsi haqqında. Azərbaycan Respublikası Təhsil Problemləri İnsitutu. Beynəlxalq konfrans materialları, Bakı, 2014, s. 177-179.

15. Hacı Kərim Sanılı ibtidai təhsil haqqında // Məktəbəqədər və ibtidai təhsil. Elmi-metodik jurnal.

16. Hacı Kərim Sanılının pedaqoji fəaliyyəti və maarifçilik görüşləri. Elm və təhsil. Bakı, 2014, 164 s.

Байрамова Сабира Сабир кызы

Педагогическая деятельность и взгляды Гаджи Керима Санылы.

Резюме

Диссертационная работа посвящена исследованию педагогических взглядов и педагогической деятельности видного просветителя Гаджи Керима Санылы. Она состоит из введения, трёх глав, семи полуглав, заключения и библиографии. В введении обосновывается актуальность темы, показываются её цель, предмет и задачи диссертации, методы её исследования.

Первая глава состоит из двух полуглав. В первой полуглаве рассмотрен исторический период конца XIX и начала XX века, его основные события, педагогические проблемы этого времени. Во второй полуглаве показываются жизнь и педагогическая деятельность Гаджи Керима Санылы. Указывается, что он закончил Учительскую семинарию в городе Гори. Эта семинария сыграла важную роль в формировании педагогических взглядов известного просветителя. После семинарии работал смотрителем в Хачмазском училище, открыл русско – азербайджанскую школу в Гяндже, затем продолжил педагогическую деятельность в Казахской области в сёлах Пойлу, Дагкесемен и т.д. В 1919 – ом году переехал в Баку и включился в активную педагогическую, художественную и политическую деятельность. Поэт – просветитель был репрессирован в 1939 – ом году и скончался в тюремной больнице.

Вторая глава охватывает мысли педагога об образовании и обучении. В первой полуглаве излагаются мысли Г.К.Санылы об общеобразовательной школе и об учителе. Рассматриваются его статьи по этому вопросу и приводятся примеры из его произведений. Во второй полуглаве рассмотрены вопросы содержания образования. Идёт педагогический анализ учебников Г.К.Санылы: «Азбука для взрослых», «Школа труда», «Тюркская азбука», «Третий год». Обобщаются мысли педагога о сущности образования и обучения.

Третья глава называется «Мысли Гаджи Керима Санылы о воспитании». В первом и полуглаве излагаются его мысли о сущности и осодержании воспитания. Обобщаются мысли педагога о разных видах воспитания. Следующая полуглава посвящена женскому образованию и воспитанию. Г.К.Санылы уделял этому вопросу особое внимание. Рассмотрены статьи, стихотворения педагога. Третья полуглава идёт под названием «Детская литература и её педагогические основы». Здесь анализируются его две книги «Буйный вол», «Обезьяна и змея». А также другие детские стихотворения поэта – педагога.

В конце диссертации делаются выводы и показывается библиография.

S.S.Bayramova

Teaching activities and attitudes of Haji Karim Sanyly.
Summary

The thesis is dedicated to the exploration of pedagogical and educational activities of a prominent educator, Haji Karim Sanyly. It consists of an introduction, three chapters, seven poluglav, conclusions and the bibliography. In the introduction substantiates the topicality of the theme, show her the purpose, scope and objectives of the thesis, methods of its study.

The first chapter consists of two poluglave. In the first poluglave examined the historical period of the late NINETEENTH and early twentieth century, its main events, pedagogical problems this time. In the second poluglave shows the life and teaching of Haji Karim Sanyly. Indicates he graduated from the teacher's Seminary in Gory. The seminary has played an important role in the formation of teachers ' views of the famous educator. After Seminary, he worked as supervisor in Khachmaz College, Russian-Azerbaijani school opened in Ganja, then continued his pedagogical activity in the Kazakh region in the villages of Poylu, Dagkesemen etc in 1919, the year he moved to Baku and involved in the active political, artistic and political activities. Poet-enlightener was repressed in 1939, and died in a prison hospital.

The second chapter covers the thoughts on education and teacher training. In the first poluglave sets out the thoughts of obŝeobra H.K Sanyly education and calling on the guru. Discusses his article on this subject and provides examples of his works. In the second poluglave examined the content of education. Is the pedagogical textbooks H.K.Sanyly: "Alphabet for adults", "School", "Turkish alphabet", "Third year". Summaries the thoughts of a teacher on the essence of education and training.

The third chapter is called "Haji Karim Sanyly Thoughts about parenting. In the first and poluglave sets out his thoughts on the essence and osoderžanii education. Summarizes the thoughts of a teacher about the different types of education. The next poluglave is devoted to women's education and upbringing. H.K. Sanyly paid particular attention to this issue. Reviewed articles, poems. A third poluglave is called "children's literature and its pedagogical foundations." Here are his two books, wild ox, a monkey and a snake. " As well as other children's poem the poet-teacher.

At the end of the thesis draws conclusions and bibliography.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

БАЙРАМОВА САБИРА САБИР кызы

# ПЕДАГОГИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ И ПЕДАГОГИЧЕСКИЕ ВЗГЛЯДЫ ГАДЖИ КЕРИМА

5804.01 – Общая педагогика, история педагогики и образования

А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени доктора
философии по педагогике

БАКУ - 2014